Maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini də irəli sürməli olur. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr 4-cü Qeyddə açıqlanır.

***Əməliyyatlar və qalıqlar.***
Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə "məzənnə fərqi üzrə gəlir/(zərər)" kimi tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir, məzənnə fərqindən yaranan hər hansı effekt ədalətli dəyər üzrə gəlir və ya zərərin tərkib hissəsi olaraq nəzərə alınır.

## 4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Şirkət maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir: əsas vəsaitlərin, həmçinin istifadə hüquqlu aktivlərin amortizasiya dərəcələri; istifadə hüququ üzrə icarə müddətinin təyin edilməsi.

## 5 Yeni və ya yenilənmiş standartların tətbiqi

Aşağıdakı yeni standartlar və ya düzəlişlər 1 yanvar 2024-cü il tarixindən qüvvəyə minmişdir:
- MHBS 16-ya ("İcarələr") dəyişikliklər - Satış və geriyə icarə öhdəliyi (22 sentyabr 2022-ci ildə dərc olunub və yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Düzəlişlər, MHBS 15 tələblərinə uyğun olaraq satış kimi hesablanması lazım olan satış və geri icarə əməliyyatları ilə əlaqədardır.
- MUBS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunub və sonradan 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu düzəlişlər, öhdəliklərin cari və ya qeyri-cari kimi təsnif edilməsinin hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olduğunu izah edir. Əgər müəssisə hesabat dövrünün sonunda ödənişi ən az on iki ay təxirə salmaq üçün əhəmiyyətli bir hüquqa malikdirsə, öhdəliklər qeyri-cari hesab olunur. Təlimatlar artıq belə bir hüququn qeyd-şərtsiz olmasını tələb etmir.
- MUBS 7 "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və MHBS 7-yə "Maliyyə alətləri: Açıqlamala Təchizatçıların maliyyələşdirmə razılaşmaları" dəyişikliklər (25 may 2023-cü ildə dərc olunub). Əlavə açıqlama tələblərinin məqsədi tədarükçü maliyyələşdirmə əməliyyatlarının şəffaflığını artırmaqdır. Düzəlişlər yalnız açıqlama tələblərinə təsir göstərir və tanınma və ya ölçmə prinsiplərinə təsir etmir.

Bu dəyişikliklərin tətbiqi Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.